# Dilimiz - Azərbaycan mədəniyyətinin dəyişməz brendi...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**Ana dilimiz bizim varlığımızdır, milli kimlik pasportumuzdur. O millət ölü sayılır ki, ana dilini zamanın tufanlarından, təbəddülatlarından qoruya bilməyib itiriblər. Ana dilinin qorunması, keçmiş nəsillərdən bugünə çatan bu müqəddəs mirası gələcək nəsillərə ötürmək bizim əsas borcumuzdur. Azərbaycan dili mədəniyyətimizin, həyatımızın, tariximizin dəyişməz göstəricisidir. Ekspertlərin fikrincə, ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir.**



Ana dili həm də çətin tarixi-siyasi dövrlərdə millətin varlığının yaşadılması üçün əsas vasitələrdən də hesab olunur. Dilini itirən xalq məhvə məhkumdur. Doğma Ana dilimiz olan Azərbaycan dili xalqımızın milli sərvətidir. Tarix yaşadıqca xalqımız bu sərvətin qayğısına qalmalı və dilimiz gələcək nəsillərə ötürülməlidir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Ümummilli lider Heydər Əliyev deyirdi ki, xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir. 1995-ci ildə ilk milli Konstitusiyamıza Azərbaycan dili dövlət dili kimi qəbul edildi. 2001-ci ilin iyulunda Ulu Öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı imzalandı. Eyni zamanda, həmin vaxtlarda Dil Şurası da yaradıldı.

Prezident İlham Əliyev doğma ana dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Azərbaycan dövləti dilimizin qorunması, müdafiəsi, yaşadılması istiqamətdə kifayət qədər ciddi addımlar atır.

AMEA-nın 80 illik yubiley mərasimindəki nitqində ana dilinin saflığı məsələsini xüsusi vurğulayan Prezident İlham Əliyev bildirirdi: "On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə olaraq tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir. Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm".

Tariximizin, milli kimliyimizin, mədəniyyətimizin əsasını təşkil edən ana dilimizin qorunması istiqamətində edilən bu çağrışa hər bir azərbaycanlı əməl etməlidir.

Filologiya elmləri doktoru, dosent Vüsalə Ağabəyli bizimlə söhbətində bildirdi ki, ana dilimiz bizim varlığımızdır və dilimizi qorumaq varlığımızı qorumaq deməkdir. "Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyində səsləndirdiyi fikirlər həm dil siyasətimiz, həm də milli identikliyimizin, kimliyimizin qorunması baxımından son dərəcə əhəmiyyətlidir. Dövlət başçısının vurğuladığı kimi, Azərbaycan dili həm qədimliyi, ifadəliliyi, həm də zənginliyi baxımından müasir dövrün tələblərinə tam cavab verir".

V.Ağabəyli qeyd etdi ki, ölkə başçısının bu çağırışı dilçilər, müəllimlər, media nümayəndələri və ümumilikdə bütün cəmiyyət üçün konkret istiqamətlər müəyyənləşdirməlidir.

Dilçi alimlər hesab edirlər ki, dilimizin yad təsirlərdən qorunması üçün dövlət tərəfindən kifayət qədər tədbirlər həyata keçirilir, dildən istifadə edən hər kəs dilin qorunması üçün əlindən gələni etməlidir. Dilçilərin fikrincə, Azərbaycan dili dünyanın inkişaf etmiş dillərindən olduğundan müasir dövrün ən müxtəlif ictimai-siyasi, elmi-mədəni, fəlsəfi-intellektual məzmun və hadisələri, informativ mənzərəsi bu dildə çevik şəkildə əksini tapa bilir. Bu baxımdan, Azərbaycan dili həm dövrün tələblərinə cavab verir, həm də böyük uğurla gələcək nəsillərə çatacaq. Mədəniyyət tariximzin özəyini təşkil edən ana dilimizin sabahına böyük ümidlə baxırıq. Təbii ki, əgər bütün sahələrdə dilimizi qoruya biləcəyiksə, bu dil də bizim varlığımızı qoruyacaq.

***İradə SARIYEVA***

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*